**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**3-44/13-9-12/2025

**Bakı şəhəri** “31” iyul **2025-ci il**

# Karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş təsərrüfatlarda bitki mühafizəsi tədbirlərinin görülməsi haqqında

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Dağlıq Şirvan, Lənkəran-Astara və Qarabağ regional bölmələrinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşları tərəfindən uyğun olaraq Ağsu rayonunun Ərəbuşağı kəndində yerləşən fiziki şəxs Gərayev Şərbət Firidun oğluna məxsus sarımsaq (0.62 ha) və Cəlilabad rayonunun Ocaqlı kəndində yerləşən fiziki şəxs Məmmədov Elnur Nurəddin oğluna (1.44 ha), Bərdə rayonunun Xanərəb kəndində yerləşən fiziki şəxs Qasımov Zamiq Asəf oğluna (3 ha) məxsus kartof təsərrüfatlarında (bundan sonra – sirayətlənmiş sahələr) fitosanitar müşahidələr aparılmış və götürülmüş nümunələr laborator müayinələrə cəlb edilmişdir. 2025-ci il 7 may tarixli 2SWLYJ8/LAB03-25001-T-001 nömrəli və 2025-ci il 26 may tarixli 8302793502/LAB16-25001-T-001 nömrəli, 2025-ci il 30 iyun tarixli 1PDY5J4/LAB03-25002-T-002 nömrəli sınaq protokollarına əsasən, nümunələrdə karantin tətbiq edilən Gövdə nematodu (*Ditylenchus dipsaci* (Kuehn) Filipjev) və Kartof gövdə nematodunun (*Ditylenchus destructor* Thorne) mövcudluğu təsdiqlənmişdir.

Qeyd olunanlara əsasən, bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınmasına, xəstəliklərin aradan qaldırılmasına, məhsul itkisinə yol verilməməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına yönəldilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-12-ci yarımbəndini rəhbər tutaraq

**Qərara alıram:**

**1.** Agentliyin Dağlıq Şirvan, Lənkəran-Astara və Qarabağ regional bölmələrinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşlarına tapşırılsın:

1.1. Ağsu rayonu ərazisində Gövdə nematodu və Cəlilabad, Bərdə rayonları ərazisində isə Kartof gövdə nematodu ilə sirayətlənmiş ərazilərin sərhədləri müəyyən edilsin;

1.2. sirayətlənmiş sahələrdə istehsal olunan kartof və sarımsaq məhsulunun əkin materialı kimi istifadəsinə icazə verilməsin;

1.3. sirayətlənmiş sahələrdə istifadə edilən kartof toxumunun mənşəyi və digər təsərrüfatlarda da əkilməsi haqqında ətraflı məlumat əldə edilsin;

1.4. sirayətlənmiş sahələrdə istehsal edilən kartof və sarımsaq məhsulunun qeyd olunan zərərli orqanizmlərin rast gəlinmədiyi digər ərazilərə daşınması məhdudlaşdırılsın.

**2.** Sirayətlənmiş sahələrdə ən azı üç il müddətində sözügedən nematodların əsas sahib bitkilərinin (kartof, sarımsaq, yerkökü, yerfındığı və s.) əkilməməsi təşviq edilsin və növbəli əkin tətbiq edilsin.

**3.** Sirayətlənmiş sahələrdə kartofdan başqa bitkinin əkilməsi uyğun olmadığı təqdirdə yalnız ərzaqlıq kartof əkini həyata keçirilsin.

**4.** Sirayətlənmiş sahələrdə təsərrüfat işləri zamanı istifadə edilən bütün avadanlıqlar, alətlər, qablaşdırma vasitələri və bu sahələrdə istehsal edilmiş kartofun və sarımsağın saxlandığı anbarlar hərtərəfli təmizlənsin və dezinfeksiya edilsin.

**5.** Sirayətlənmiş sahələrdə istifadə edilən texnika və alətlər təmizlənərək dezinfeksiya edildikdən sonra digər sahələrdə istifadəsinə icazə verilsin.

**6.** Nematod sistasının su vasitəsilə yayıla bilməsi nəzərə alınaraq, digər sahələrin suvarılması üçün istifadə edilən su kanallarının sirayətlənmiş sahələrdən keçməməsi, sahənin və su kanallarının ətrafının alaq otlarından, habelə əvvəlki əkindən torpaqda qalan bitki qalıqlarından təmizlənməsi təmin edilsin.

**7.** Sirayətlənmiş sahələrdən torpağın kənara çıxarılmasına icazə verilməsin.

**8.** Sirayətlənmiş sahələrin ətrafında 15-20 m radiusda ərazi bufer zona olaraq müəyyənləşdirilsin, sirayətlənmiş sahələr üçün tətbiq edilən tədbirlər bu zonada olan əkin sahələrinə də tətbiq edilsin.

**9.** Yeni əkin zamanı sertifikatlaşdırılmış, davamlı toxum və əkin materiallarından istifadə edilsin.

**10.** Bu Qərarın icrasına nəzarət Agentliyin Dağlıq Şirvan, Lənkəran-Astara və Qarabağ regional bölmələri tərəfindən həyata keçirilsin.

**11.** Bu Qərarın icrasından yayınan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**12.** Agentlik Aparatının Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi bu Qərarın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Sədr müavini** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi **Balarəhim Quliyev**